Qəzet 1931-ci ildən nəşr olunur

# MƏHSUL

Biləsuvar Rayonunun ictimai-siyasi qəzeti

№: 19-20 (8231) 31 oktyabr 2023-cü il Qiymәti 40 qəpik

# Tarix yazan 20 il



*"İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər"*

*Ulu Öndər*
*Heydər Əliyev*

Davamı Səh. 2

## Bu sayımızda

Müstəqilliyin Bərpası Günü ilə əlaqədar "Tarix yazan əbədiyaşar lider" mövzusunda dəyirmi masa

Səh. 3


Prokurorluq işçilərinin peşə bayramı
Səh. 3


"Karvansaray" tamaşası nümayiş olunub
Səh. 8


"Müasir əkinçiliyin strukturu və innovativ suvarma sistemlərinin tətbiqinin səmərəliliyi"
Səh. 7


Biləsuvarlı şəhidlərin 40 mərasimi keçirilib
Səh. 6


Kompleks mülki müdafiə təlimi keçirildi
Səh. 5

# Tarix yazan 20 il



*(Əvvəli 1-ci səhifədə)*

Dayanıqlı və möhkəm dövlət quruculuğunun əsas tələbi milli inkişafın məqsəd və prioritetlərini özündə birləşdirən milli ideyanın olmasıdır. Müasir Azərbaycan dövlətçiliyinin əsas sütunu xalqın "azad və güclü olmaq" arzusunu özündə əks etdirən milli ideyasını güclü dövlətə çevirməyi bacaran Ulu Öndər Heydər Əliyev dühası və siyasəti olmuşdur. Bütün uğurlarımızın əsas mənbəyi bu strategiyanın və yolun uğurla davam etdirilməsi və onun genişləndirilməsidir.

Prezidentlik fəaliyyətinə başlayanda "Mən Azərbaycan xalqına söz verirəm ki, Heydər Əliyev siyasətinə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, bu siyasəti davam etdirəcəyəm" - demişdir cənab İlham Əliyev.

Məhz bu yolun əsas davamçısı olaraq cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyəti Azərbaycana tarixdə heç bir zaman olmayan uğurlar gətirdi. Məhz onun rəhbərliyi ilə Azərbaycan xalqı 100 illərdir arzuladığı, bu yolda böyük qurbanlar verdiyi hədəfinə çatdı. İşğal altında olan torpaqlarımız, təhqir edilən mənəvi ocaqlarımız azadlığa qovuşdu. Xalqımızın qaməti dikəldi, layiq olduğu şərəfli həyata qovuşdu. O, and içərkən öpdüyü Azərbaycan bayrağını bizim üçün dünyanın mənəvi cəhətdən ən uca nöqtəsinə, Şuşaya sancdı. Azərbaycan xalqı 2020-ci il noyabrın 8-də yenidən doğuldu. Artıq o, qalib xalqdır, onun dövləti ən güclü dövlətdir, onun rəhbəri ən qüdrətli və ən ağıllı rəhbərdir, onun övladları ən böyük qəhrəmanlardır!

Strateji, səbirli, uzaqgörən, soyuqqanlı, cəsarətli, humanist, xalqa arxalanan idarəetmə sistemi qurmaqla cənab İlham Əliyev bu möhtəşəm qələbəyə 2003-cü ildən başlayaraq addım-addım gələrək nail oldu. Bütün resursları "Qarabağ" hədəfinə yönəltməklə sonunda bütün dünyanın belə gözləmədiyi qələbəyə nail oldu, Azərbaycan xalqının düşmənlərinin belini qırdı. Azərbaycan bayrağı artıq bütün Qarabağda qürurla dalğalanır!

Bu çətin və şərəfli yolda Prezident İlham Əliyevin iqtisadi siyasəti, əldə etdiyi nəticələr hər zaman hər kəsdə həsəd yaratdı. Son 20 ildə ümumi daxili məhsulumuz 4 dəfə, büdcə gəlirlərimiz 30 dəfə, xarici ticarət dövriyyəmiz 10 dəfədən çox artaraq, inkişaf dinamikasına görə dünyada lider ölkə olduq, regionda ən çox xarici investisiya və texnologiya cəlb edən ölkəyə çevrildik. İqtisadi potensialımızın reallaşması qarşısında olan bütün sədlər keçildi və əsl iqtisadi müstəqilliyə nail olduq. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, TANAP, TAP layihələri məhz onun səyləri və fədakarlığı ilə reallaşdı. Vaxtilə regionda infrastruktur cəhətdən blokada şəraitində olan Azərbaycan indi "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişdiyi yeganə ölkədir.

Öz iqtisadi siyasətinə regionların inkişafı ilə başlayan cənab İlham Əliyev Azərbaycanın tarazlı inkişafında mühüm nəticələr əldə etdi. Ölkəmizin hər bir bölgəsi artıq həyat şəraitinin yaxşılaşması, abad infrastruktura sahib olmaq göstəricilərinə görə fərqlənirlər.

İnsan kapitalının inkişaf etdirilməsi, milli kadrların hazırlanması daim dövlət başçısının diqqətində olmuşdur. Məhz onun ideyaları nəticəsində ölkəmizdə son 20 ildə yeni bir gənclik yetişdi - vətənpərvər, qorxmaz, müasir, savadlı, ağıllı. O, ölkəmizin gələcək inkişafını məhz insan kapitalının üzərində qurdu və möhtəşəm uğurlar əldə etdi. Hazırda iqtisadiyyatımızın ən qabaqcıl və texnoloji sahələrində milli kadrlarımız çalışırlar. Kosmik klubun üzvü olan Azərbaycanın süni peyklərinin idarə olunması belə milli kadrların tərəfindən həyata keçirilir.

Uğurlu siyasət nəticəsində əldə edilən neft gəlirləri hesabına ölkəmizdə qeyri-neft sektorunun güclənməsi, sahibkarlığın inkişafı onun sürətli və əhatəli iqtisadi islahatlarının əsas hədəfi oldu. Davamlı aparılan bu islahatlar nəticəsində iqtisadiyyatımızın əsas hərəkətverici qüvvəsi qeyri-neft sektoru oldu. Geniş şəffaflaşma prosesi, bürokratiyanın aradan qaldırılması, ədalətli rəqabətin təmin olunması iqtisadiyyatımızın dayanıqlı inkişafına böyük təkan verdi.

20 illik prezidentlik fəaliyyəti dövründə cənab İlham Əliyevi ən çox fərqləndirən xüsusiyyət onun sosial dövlət konsepsiyasını inşa etməsi, əldə olunan hər bir uğurun xalqın güzəranının daha da yaxşılaşmasına, onun təhlükəsizliyinin qorunmasına və gələcəyə ümidlərinin daha da artmasına sərf etməsi oldu. Bu siyasətin nəticəsində ölkəmizdə yoxsulluq və işsizlik səviyyəsi dəfələrlə azaldı, sosial ödənişlərin həcmi dəfələrlə artdı, layiqli həyat şəraitinin səviyyəsinə görə Azərbaycan regionda bir çox ölkəni geridə qoydu.

O, əldə olunan güclü iqtisadi imkanları həm də ölkəmizin müttəfiqlərinin və dostlarının sayının artmasına, düşmənlərimizin neytrallaşdırılmasına, dünyada Azərbaycanın nüfuzunun artmasına sərf etdi. Bunun nəticəsində Azərbaycan həqiqətləri bütün dünyaya yayıldı, biz ədalətli xalq kimi layiq olduğumuz rəğbətə sahib olduq, dünyanın aparıcı təşkilatlarına rəhbərlik etdik və etməkdəyik.

"Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir" - deyə Prezident İlham Əliyev bildirmişdi. Cənab İlham Əliyev iqtisadi imkanları güclü ordu qurmağa sərf etməklə hər bir Azərbaycan əsgərinə və hər bir azərbaycanlıya qalib olmaq inamı aşıladı. Məhz güclü Ali Baş Komandan, inamlı əsgər və fədakar xalq hesabına biz döyüş meydanında qalib gəldik.

Bu gün Azərbaycan dövləti hərtərəfli güclü dövlətdir. O, özünün ən şərəfli dövrünü yaşayır. İşğaldan azad edilmiş ərazilərin sürətlə bərpası, insanlarımızın sevinc və qürur hissi ilə öz yurdlarına dönməsi müasir dövrümüzün şərəfli səhifələridir. Təhlükəsizliyimizin gücləndirilməsi, iqtisadiyyatın davamlı inkişafı, vətəndaşlarımızın daha yaxşı yaşaması, müasir texnologiyalardan istifadənin genişləndirilməsi kimi mühüm çağırışlara nail olmaq yolunda Azərbaycan davamlı olaraq irəliləyir.

Yeni Azərbaycan yeni hədəflərə doğru inamla addımlayır. Dəyişən və yenidən qurulan dünyada Azərbaycanın özünəməxsus güclü yeri və sözü olacaqdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan nəticələr bir daha göstərdi ki, müdrik dövlət rəhbəri, xalqın ona olan inamı və sevgisi ilə istənilən hədəfə nail olmaq mümkündür. Mən inanıram ki, biz adı tariximizə qızıl hərflərlə yazılan cənab İlham Əliyevin rəhbərliyi ilə hələ çox uğura imza atacaq və çox zirvəni fəth edəcəyik!



# Rayonumuzda Günəş elektrik stansiyası layihəsi ilə bağlı Prezidentin iştirakı ilə İnvestisiya müqaviləsi imzalanmışdır

Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni imzaladılar.

# Prokurorluq işçilərinin peşə bayramı



Prokurorluq işçilərinin peşə bayramı günü ilə əlaqədar olaraq Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Azər Cəfərov, Rayon Prokuroru Camal Bağırov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və rayon prokurorluğunun işçiləri Heydər Əliyev parkına gələrək Ulu Öndərin abidəsini ziyarət edib, əziz xatirəsinə tər çiçəklər düzdülər.



17 iyul 1998-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin imzaladığı Sərəncamla oktyabr ayının 1-i ölkəmizdə prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir. Respublikamızda prokurorluq orqanlarının formalaşmasında da xalqımızın Ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olub. Ulu Öndərin iradəsi ilə gerçəkləşən bu əlamətdar gün prokurorluq işçilərinə dövlət səviyyəsində göstərilən qayğının və hərtərəfli dəstəyin əyani təzahürüdür. Bu gün də cənab Prezident İlham Əliyev tərəfindən prokurorluq orqanlarına yüksək etimad, dövlət səviyyəsində hərtərəfli diqqət və qayğı göstərilir, onun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülür. Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edir.

İştirakçılar prokurorluq işçilərini peşə bayramları münasibətilə təbrik edərək onlara ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının cinayətkarlardan qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində uğurlar arzuladılar.

***Məhərrəm QURBANOV***

# Müstəqilliyin Bərpası Günü ilə əlaqədar "Tarix yazan əbədiyaşar lider" mövzusunda dəyirmi masa



Rayon İcra Hakimiyyətinin və YAP Rayon Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Rayon İcra Hakimiyyətinin Başçısı Faiq Qürbətov, YAP rayon təşkilatının sədri Kamil Qurbanlı və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə Rayon İcra Hakimiyyətinin Başçısı Faiq Qürbətov bildirib ki, 1991-ci ilin 18 oktyabr tarixində xalqımız öz dövlət müstəqilliyinə qovuşsa da, həmin dövrdə ölkənin idarə olunmasında yaranmış xaos və özbaşnalıq nəticəsində ölkəmizin suverenliyinin, müstəqilliyinin qorunması çox çətin bir vəziyyət almışdır. Respublikamızın qarşılaşdığı ağır bir zamanda xalqın təkidi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxardı və ardıcıl mübarizə apararaq onu həqiqi müstəqilliyinə qovuşdurdu.

Məhz Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub saxlanıldı, dövlətlə xalqın birliyi təmin edildi, bütün sahələrdə demokratik islahatlara başlanıldı, güclü dövlətin möhkəm təməli qoyuldu. Ulu Öndərin xalqımızın milli maraqlarına əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyasının davamı 2003-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla və qətiyyətlə həyata keçirilir. Mütərəqqi idarəçilik prinsipləri, özünün müdrik daxili və xarici siyasəti ilə dünyada böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifəni inamla icra edir. 2020-ci ilin payızında və bu ilin sentyabr ayında Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığı müharibədə qazandığı tarixi qələbə Azərbaycan xalqının yüz illər boyu apardığı haqq-ədalət mübarizəsinin təntənəsi idi. Bununla da, Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu bir daha bütün dünyaya sübuta yetirdi.

YAP rayon təşkilatının sədri Kamil Qurbanlı, Dairə Seçki Komissiyasının sədri Əzizağa Hətəmov, Rayon Gənclər və İdman Sektorunun müdiri Azad Quliyev Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən danışaraq bildiriblər ki, qürurverici haldır ki, Ulu Öndərin memarı və qurucusu olduğu, hazırda böyük yüksəliş dövrünü yaşayan müstəqil Azərbaycan Respublikasının dövlət müstəqilliyi etibarlı əllərdədir.

***"MƏHSUL"***



# Qardaş Çameli bələdiyyəsinin sədri Cengiz Arslan rayonumuza səfərdə olub





Rayonumuza səfərə gələn qardaş Türkiyə Cümhuriyyətinin Dənizli vilayətinin Çameli bələdiyyəsinin sədri Cengiz Arslan Rayon İcra Hakimiyyətinin Başçısı Faiq Qürbətovla görüşüb.

Faiq Qürbətov qonaqları salamlayaraq Türkiyə və Azərbaycan arasındakı sarsılmaz dostluq və qardaşlıq münasibətləri barədə danışıb. İcra başçısı bildirib ki, hər iki qardaş xalq istər xoş günlərdə, istərsə də çətin vaxtlarda birlik nümayiş etdirib, bir-birinin sevincini və kədərini bölüşüb.



Azərbaycan ilə Türkiyə arasında əlaqələrin ən yüksək səviyyədə olmasını bir daha Vətən müharibəsi zamanı bütün dünya gördü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyub Ərdoğan cənablarının dostluğu və qardaşlığı sayəsində Türkiyə-Azərbaycan birliyi, dostluğu və qardaşlığı bu gün də uğurla davam edir, min illər keçsə də soyu, kökü, dili, dini, bütün adət-ənənələri bir olan xalqlarımız arasındakı saf, səmimi və doğma münasibətlər daha da dərinləşəcək və yeni mərhələyə qədəm qoyacaqdır. Bütün bunlar onu göstərir ki, əbədi və əzəli Azərbaycan-Türkiyə birliyi, dostluğu və qardaşlığı sarsılmazdır və daim belə də olacaqdır.

Görüş zamanı iki qardaşlaşmış şəhər arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın perspektivləri, iqtisadi əlaqələrin inkişaf etdirilməsi, investisiya imkanları ilə bağlı fikir mübadiləsi aparılıb. Bildirilib ki, şəhərlər arasında mədəni, sosial və iqtisadi münasibətləri, həmçinin dostluq və qardaşlıq əlaqələrini təşviq etmək və birgə fəaliyyət sahələrini genişləndirmək niyyətindədir. Bundan əlavə tərəflər arasında birgə proqram, layihələr, habelə təcrübə mübadiləsi, incəsənət, mədəniyyət, elm və ticarət sahələrində əməkdaşlıqların yolları müzakirə olunub.

Türkiyə Cümhuriyyətinin Dənizli vilayətinin Çameli bələdiyyəsinin sədri Cengiz Arslan rayonumuza səfəri çərçivəsində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ev muzeyini ziyarət edərək, ailəsi ilə görüşüb. Görüş zamanı Mübariz İbrahimovun həyatı və qəhrəmanlığı barədə söhbət aparılıb, əziz xatirəsi yad edilib. Sonra qonaqlar qəhrəmanın ev muzeyində oldular.



Milli Qəhrəmanın atası Ağakərim İbrahimov ziyarətə görə şəhidimizin adını uca tutduqlarına görə qonaqlara minnətdarlığını ifadə edib.

Göstərilən yüksək qonaqpərvərliyə görə bələdiyyə sədri Cengiz Arslan Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətova dərin təşəkkürünü bildirdi.

*Ülvi HƏZİZADƏ*

# Rayon ümumtəhsil müəssisələrində təhsilin keyfiyyəti müzakirə olunub



Rayonumuzda təhsilinin keyfiyyətinə dair Rayon İcra Hakimiyyətinin və Şirvan-Salyan Regional Təhsil İdarəsinin birgə iştirakı ilə görüş keçirildi.

Görüşdə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, başçının müavini Ləman Yüzbaşova, Şirvan-Salyan Regional Təhsil İdarəsinin rəisi Sənan Mənsimli və məktəb direktorları iştirak etdi.

Əvvəlcə başçı Faiq Qürbətov çıxış edərək bildirdi ki, Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son dövrlərdə təhsil sahəsində önəmli islahatlar həyata keçirilir. Bu gün ölkəmizdə təhsilin daha da inkişafı üçün xeyli sayda dövlət proqramı icra olunur. Başçı rayon məktəblərində təhsilin inkişafı və daha keyfiyyətli keçirilməsi, səmərəliliyinin artması, məktəblilərin gələcək həyat və fəaliyyətinin yaxşılaşdırılması üçün təhsilin səviyyəsinin yüksəldilməsi işini gücləndirməyin vacibliyini vurğuladı. Həmçinin etdi ki, təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşması müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən, həmçinin valideynin diqqət və qayğısından asılıdır. Bu səbəbdən təhsilin keyfiyyətinin artırılması üçün birgə əmək sərf etmək vacib şərtlərdən biridir.

Başçının müavini Ləman Yüzbaşova rayonda təhsilin keyfiyyətinə təsir edən mənfi amillərə- məktəblilərin, xüsusilə azyaşlı qızların erkən nikaha cəlb edilməsi və bunun nəticəsində təhsildən yayınma hallarına qarşı mübarizə tədbirləri və nəticələri barədə məlumat verdi.



Tədbirdə Şirvan-Salyan Regional Təhsil İdarəsinin rəisi Sənan Mənsimli rayon təhsilinin inkişaf istiqamətlərinin müəyyənəşdirilməsi məqsədilə həyata keçirilən tədbirlər barədə danışdı, həmçinin rayon ümumtəhsil müəssisələrində təhsilverənlərin pedaqoji prosesdə iştirak və təhsilalanların bu prosesə cəlb edilməsi səviyyəsi, o cümlədən şagirdlərin 2021-2022-ci il, 2022-2023-cü tədris ili üzrə buraxılış imtahanı nəticələri barədə slayd nümayiş olundu və nəticələr ətrafında müzakirələr aparıldı.

*Kəramət SADATOV*






# Müəllimlər Gününə həsr olunmuş tədbir

Tədbir İştirakçıları əvvəlcə Heydər Əliyev parkında Ulu Öndərin abidəsini ziyarət edərək, əziz xatirəsini yad etdilər. Şəhər Nizami adına 1 saylı tam orta məktəbində keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra, Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov 5 oktyabr-Müəllimlər Günü münasibətilə müəllimləri təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzuladı. İcra başçısı çıxışında Ulu Öndər Heydər Əliyevin müəllim peşəsinə verdiyi dəyərdən və bu şərəfli peşə sahiblərinin əməyinin cəmiyyətin inkişafındakı rolundan danışaraq qeyd edib ki, "Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə təhsil sahəsində uğurla həyata keçirdiyi islahatlar, təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərdikləri yüksək qayğı və diqqət öz müsbət nəticələrini verir. Yeni təhsil müəssisələri tikilir, məktəblərimiz əsaslı təmir olunur və təhsil ocaqlarının maddi-texniki bazası yenilənərək informasiya kommunikasiya texnologiyaları ilə təminatı yaxşılaşdırılır. Rayonumuzda yeni istifadəyə verilən təhsil ocaqları, inşa və əsaslı təmir olunan məktəb binaları təhsilin keyfiyyətinin yüksəlməsinə birbaşa təsir göstərən mühüm amillərdir.

Faiq Qürbətov bir daha müəllimləri təbrik edərək, onlara çətin və şərəfli peşələrində uğurlar arzuladı.

Şirvan-Salyan Regional Təhsil İdarəsinin Tədrisin Keyfiyyəti sektorunun müdiri Vüqar Dadaşov və digərləri müəllimləri təbrik edərək, dövlət başçısı cənab İlham Əliyevin müəllim əməyinə verdiyi yüksək qiymətdən, onlara göstərilən diqqət və qayğıdan, məktəblərdə yaradılan müasir şəraitdən danışdılar.



Çıxışlarda müəllimlər təhsil işçilərinə göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Sonda təhsil sahəsindəki səmərəli pedaqoji fəaliyyətinə görə rayonun bir qrup qabaqcıl təhsil işçisi Fəxri Fərmanla mükafatlandırılıb və xatirə şəkli çəkilib.

*İmran RÜSTƏMOV*

# "İnnovasiya festivalı və Toxum Satış Yarmarkası" keçirilib




Rayonumuzun Heydər Əliyev Parkında təşkil olunmuş "İnnovasiya festivalı və Toxum Satış Yarmarkası" Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi tərəfindən kənd təsərrüfatı təyinatlı innovativ məhsul və texnologiyaların fermerlər üçün əlçatanlığının təmin edilməsi məqsədilə təşkil edilmişdir. Kənd təsərrüfatı təyinatlı məhsul və texnologiyaların sərgiləndiyi festivalda həmçinin toxum sərgi-satış yarmarkası təşkil edilib.

Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Biləsuvar, Neftçala, Cəlilabad, Masallı, Lerik, Yardımlı, Lənkəran, Astara rayonlarının DAİM rəhbərləri və fermerlər, dövlət və özəl toxumçular, ictimaiyyətin nümayəndələri və rayon sakinləri tədbirdə iştirak edirdi.

Festivalın açılış mərasimində RİH başçısı Faiq Qürbətov iştirakçıları salamladıqdan sonra rayonda təşkil edilən festivalın əhəmiyyəti barədə iştirakçılara məlumatlandırıb.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov layihənin təqdimatı ilə bağlı çıxış edərək,







festival barədə ətraflı danışıb.

Sonra aqrar sahədə fəaliyyət göstərən şirkətlərin, həmçinin nazirliyin və digər dövlət qurumlarının mütəxəssisləri tərəfindən fermerlər üçün aqrar sığorta, bitkiçilik və heyvandarlıq, dəqiq əkinçilik, "ağıllı" kənd təsərrüfatı sistemləri, ən yaxşı qabaqcıl kənd təsərrüfatı təcrübələri, kənd təsərrüfatının inkişaf etdirilməsinə hədəflənən prioritet istiqamətlər barədə məlumatlar verilib.

Aqrar sahədəki innovativ məhsul, avadanlıq və texnologiyalar nümayiş etdirilib, toxum sərgi-satışı, kənd təsərrüfatı təyinatlı texnikalar, müasir suvarma metod və texnologiyaları, gübrə, pestisid nümunələri və aqrar sahəyə məxsus digər məhsullar sərgilənib. Tədbirdə fermerləri maraqlandıran suallar cavablandırılıb, müvafiq məsləhət və tövsiyələr verilib.

Festivalda ölkədə fəaliyyət göstərən və aqrar sektorun müxtəlif sahələri üzrə ixtisaslaşmış dövlət və özəl bölməni təmsil edən qurumlar və şirkətlər iştirak edib.

Festival iştirakçılar tərəfindən maraqla qarşılanıb.

***Aqşin KAZIMLI***

# Kompleks mülki müdafiə təlimi keçirildi



"Azərbaycan Respublikasının 2023-ci il üçün Mülki müdafiə tədbirləri planı" çərçivəsində 25-27 oktyabr 2023-cü il tarixlərində Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzinin rəhbərliyi ilə "İrimiqyaslı fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili" mövzusunda kompleks mülki müdafiə təlimi keçirildi.

Təlimdə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzinin rəisi polkovnik Vüqar Ağayev, FHN-in aidiyyəti qurumlarının nümayəndələri, rayon Fövqəladə Hallar Komissiyası (FHK), İcra Hakimiyyətinin Mülki müdafiə qərargahı, rayonun mülki müdafiə xidmətləri, ərazi və obyekt mülki müdafiə dəstələri, digər aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri və mülki müdafiə sahəsində cavabdeh şəxslər iştirak etdilər.

Əvvəlcə, kompleks mülki müdafiə təlimi ilə əlaqədar Rayon İcra Hakimiyyətinin inzibati binasında müşavirə keçirilib.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov təlimin vacibliyindən danışaraq, mülki müdafiə sahəsində birgə fəaliyyətin və əməkdaşlığın əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm rol oynadığını diqqətə çatdırdı..

Çıxış edən Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzinin rəisi polkovnik Vüqar Ağayev fövqəladə hadisələr zamanı mülki müdafiənin əhəmiyyəti, mülki müdafiənin təşkili, mülki müdafiə tədbirlərinin icra vəziyyətindən danışaraq, bu sahədə idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin əhəmiyyətindən bəhs edib. V. Ağayev qeyd edib ki, rayon ərazisində olan qüvvələrin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, eləcə də əhalinin maarifləndirilməsi, mühafizəsi, xəbərdarlıq, mühafizə vasitələri ilə təminatı, köçürülməsi və digər bu kimi mülki müdafiə tədbirləri daim diqqət mərkəzində olmalıdır.








Sonra kompleks mülki müdafiə təliminə start verilib. Təlimin keçirilməsində məqsəd dislokasiya ərazisində mülki müdafiə planlarının reallığının yoxlanılması, mülki müdafiə idarəetmə orqanlarının, fövqəladə hallar komissiyalarının, rəhbər və komandir-rəis heyətinin fövqəladə hadisələr zamanı fəaliyyət üzrə bilik və bacarıqlarının artırılması, rabitə və xəbərdarlıq sistemlərinin etibarlılığının təmin olunması, ehtimal olunan fövqəladə hadisələr zamanı mülki müdafiə xidmətlərinin və hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yüksək hazırlıq rejiminə gətirilməsi olub.

Təlim zamanı rayonun mülki müdafiə qüvvələri fövqəladə hadisənin baş verməsi barədə rayon rəhbərliyinin, FHK-nın və mülki müdafiə idarəetmə orqanlarının xəbərdar edilməsi, rayonun mülki müdafiə idarəetmə orqanlarının, mülki müdafiə xidmətlərinin və ərazi üzrə mülki müdafiə qüvvələrinin yüksək hazırlıq vəziyyətinə gətirilməsi, şəxsi heyətin "xəbərdarlıq toplanış" siqnalı üzrə fəaliyyəti, ərazinin kəşfiyyatının aparılması, məlumatların toplanması və təhlilinin aparılması, görüləcək qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin həcminin müəyyən edilməsi və təşkili işləri yerinə yetirilib.

Tədbirin gedişində rayonun mülki müdafiə dəstələri və xidmətlərinin qarşılıqlı fəaliyyəti uğurla təşkil edilib və qarşıya qoyulmuş məqsədlərə nail olunub. Kompleks təlimə Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzinin, Dövlət Yanğından Mühafizə Xidmətinin rayon Yanğından Mühafizə Hissəsinin, rayonun aidiyyəti qurumlarının, hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin ümumilikdə 275 nəfər şəxsi heyəti və 50 ədəd texnikası cəlb edilib.

***"MƏHSUL"***

# RİH başçısının yerlərdə vətəndaşlarla görüş-qəbulu davam edir



***Cənab Prezident səviyyəsində vətəndaş müraciətlərinə yüksək həssaslıqla yanaşılması məsələsinə xüsusi diqqət ayrılır, dövlət məmurlarına konkret tapşırıq və tövsiyələr verilir.***

***Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən vətəndaşların müraciətlərinə ölkə rəhbərliyinin tələblərinə uyğun olaraq yanaşılır, əhalini narahat edən problemlərin qısa müddətdə operativ qaydada həlli üçün konkret tədbirlər görülür, qaldırılan məsələlər vaxtında həyata keçirilir.***

Oktyabr ayında RİH başçısı təsdiq olunmuş qrafika uyğun olaraq Çaylı, Bəydili, Çinarlı-Aranlı və Yuxarı Cürəli kəndlərində də vətəndaşlarla səyyar görüş-qəbul keçirmişdir.

Səyyar qəbullarda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon İcra Hakimiyyəti başçısının müavinləri, şöbə müdirləri, dövlət orqanlarının yerli idarələrinin, xidmət sahələrinin rəhbərləri və kənd sakinləri iştirak edib.

RİH başçısı Faiq Qürbətov əvvəlcə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda və rayonumuzda görülən işlər barədə kənd sakinlərinə ətraflı məlumat verib.

Başçı bildirib ki, regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirən dövlət başçısının hərtərəfli qayğısı sayəsində davamlı olaraq bütün problemlər aradan qaldırılır və əhalinin sosial rifahına yönəlmiş tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Rayonda keçirilən istər səyyar qəbullarda, istər də fərdi şəkildə aparılan qəbullarda səsləndirilən hər bir müraciət diqqətlə araşdırılaraq qanunvericiliyə uyğun icrası təmin olunur.Vətəndaşlarımızı narahat edən ən kiçik müraciət, problem belə diqqətdən kənarda qalmır. Təbii ki, aparılan bütün bu tədbirlər əhalimizin rahatlığının təminatına, güzəranının yaxşılaşdırılmasına xidmət edir və görülən bu məqsədyönlü işlər bundan sonra da davam etdiriləcəkdir. Ötən qəbul zamanı qaldırılan məsələlərin həlli ilə bağlı görülən işlər barədə vətəndaşlara məlumat verildi.

Daha sonra sakinlərin təklifləri, istəkləri dinlənilib və onları narahat edən problemlər məsul şəxslərin iştirakı ilə araşdırılaraq həlli ilə bağlı tədbirlər müəyyənləşdirilib. Həlli vaxt tələb edən



məsələlər nəzarətə götürülməklə aidiyyəti təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Başçının yerlərdə keçirdiyi səyyar görüş-qəbulları razılıqla qarşılayan sakinlər, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***Hüseyn İBAYEV***



# Millət vəkili B.Məhərrəmov şəhid ailələrini davamlı olaraq ziyarət edir

Davamlı olaraq Millət vəkili B.Məhərrəmov rayonun şəhid ailələrini ziyarət edir, onların qayğıları ilə maraqlanır, hər bir istəyinə diqqətlə yanaşır. Bu dəfə də o, Vətən Müharibəsi Qəhrəmanı, igid kapitan Nihad Babayevin ailəsini ziyarət etmiş, şəhidimizin atası Akif kişi və anası Seyidxanım xanımla xoş xatirəsi ilə yadda qalan görüş baş tutmuşdur.

Qeyd edək ki, şəhid Babayev Nihad Akif oğlu 30 avqust 1991-ci ildə Günəşli kəndində anadan olub.



Vətən müharibəsi zamanı kapitan Babayev Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan uğrunda döyüşlərdə iştirak edərək qruplara komandanlıq edib. 2020-ci il oktyabrın 29-da Füzuli rayonun Yuxarı Veysəlli kəndinə yaxın Uryandağ yüksəkliyi uğrunda şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən Nihad Babayevə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə kapitan Nihad Babayevə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları (ölümündən sonra) ilə təltif edilmişdir.

***Əfsun ƏLİZADƏ***

# Biləsuvarlı şəhidlərin 40 mərasimi keçirilib



Ölkəmizin ərazi bütövlüyünün və Azərbaycanın Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü il tarixində Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Qarabağda aparılmış antiterror tədbirləri zamanı şəhid olmuş Rəsul Yusif oğlu Teymurovun, Azər Sulduz oğlu Məmmədovun və Rəşid Mədət oğlu Zeynallının 40 mərasimlərində xatirələri ehtiramla anılıb.

Mərasimlərdə iştirak edən Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov və rayon ictimaiyyətin nümayəndələri şəhidlərin ata ocağını ziyarət edərək valideynləri və yaxınları ilə görüşüblər.

Şəhidlərin 40 mərasimlərində bildirilib ki, Azərbaycan Respublikasının Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə bir daha sübut etdi ki, Milli Qəhrəman Mübariz İbrahimovun igidliyi ölkəmizdə böyük bir qəhrəmanlıq məktəbi yaratmışdır. Məhz bu məktəbin davamçıları olaraq Azərbaycan Ordusunun əsgərləri döyüşlərdə tarixi qələbələr qazanaraq bir daha bütün dünyaya ordumuzun gücünü, qüdrətini hiss etdirdi.

Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ordumuz dünyanın ən güclü ordularından biri olduğunu sübut etdi.

Vətənimizin azadlığı üçün bu yolda canını əsirgəməyən,ölümün gözünə dik baxan qəhrəman şəhidlərimizlə qürur duyuruq!

Azərbaycan xalqının qüruru, fəxri olan şəhidlərimizin xatirəsi daim əziz tutulacaq və dövlətimiz hər zaman şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələrinin yanında olacaqdır.

***Taleh CƏFƏROV***

# RİH başçısının yerlərdə noyabr ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S/S | Qəbulun keçiriləcəyi inzibati ərazi dairəsinin adı | Qəbulun keçiriləcəyi yer | Qəbul günləri | | | |
|---|---|---|---|---|---|---|
| | | | 01.11.23 | 07.11.23 | 15.11.23 | 22.11.23 |
| 1 | Zəhmətabad kəndi | Zəhmətabad kənd tam orta məktəbi | + | | | |
| 2 | Ovçubərə kəndi | Ovçubərə kənd icra nümayəndəliyi | | + | | |
| 3 | Təzəkənd kəndi | Təzəkənd kənd icra nümayəndəliyi | | | + | |
| 4 | Nəsimi kəndi | Nəsimi kənd icra nümayəndəliyi | | | | + |

**Səyyari qəbullarda iştirak etmək istəyən vətəndaşlara İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyə qabaqcadan müraciət etmələri tövsiyə olunur.**



# YAP rayon təşkilatı ərazi partiya təşkilatlarında fəallar ilə növbəti görüş

Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Kamil Qurbanlı ərazi partiya təşkilatlarında səyyar görüşlər keçirib. Beləki Yuxarı Ağalı, Aranlı, Çinarlı, Nərmankənd, Nəsimi, Ovçubərə, Bağbanlar kənd və 6 saylı şəhər ərazi partiya təşkilatlarında partiya fəalları ilə görüşlər keçirilmişdir. Hər görüş öncəsi ərazidəki qəbirstanlıqda vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin məzarları ziyarət olunmuşdur.




Görüşlərdə YAP Rayon təşkilatının sədri Kamil Qurbanlı çıxış edərək Ümummilli Liderimiz Heydər Əliyevin memarı və qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan, bu yöndə həyata keçirilən məqsədyönlü tədbirlərdən, qarşıda duran vəzifələrdən ətraflı danışıb. Rayon təşkilatının sədri tarixi ənənələrə malik, Cənubi Qafqazın alternativsiz partiyası olan Yeni Azərbaycan Partiyasının VII qurultayında Möhtərəm Prezidentimiz, partiya sədri cənab İlham Əliyev tapşırıq və tövsiyələrlə zəngin, proqram xarakterli nitqindən irəli gələn vəzifələrin yerinə yetirilməsindən, qazanılan nailiyyətlərdən, əldə olunan uğurlardan ətraflı bəhs edib. K.Qurbanlı 44 günlük Vətən Müharibəsində qazanılan şanlı tarixi zəfərimizdən danışaraq, müharibədən sonrakı məqsədyönlü siyasət, məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı ilə əlaqədar işğaldan azad edilmiş torpaqlarda aparılan quruculuq işləri barədə ətraflı məlumat verib.

Qarşılıqlı səmimi diskussiya şəraitində keçən tədbirlərdə sakinlər öz fikir və mülahizələrini iştirakçıların diqqətinə çatdırıblar. Rayonumuzda mövcud ictimai-siyasi vəziyyət, görülmüş işlər, həlli vacib olan bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. YAP Rayon təşkilatının sədri görüş iştirakçılarının suallarını cavablandırıb, onları maraqlandıran məsələlərə münasibət bildirib. İştirakçılar bu kimi görüşlərin vaxtaşırı olaraq keçirilməsinin əhəmiyyətini qeyd ediblər. Partiya fəalları və ictimaiyyətin digər nümayəndələri ilə səyyari görüşlər davam edir.

***Samir AĞAYEV***

*Biləsuvarın timsalında biz regionların inkişafını, dövlət siyasətinin nəticələrini görürük.*
*İlham ƏLİYEV*

# Pambıq yığımına start verilib



Biləsuvar camaatı əməksevərdir. Qədimdən əkinçilik və maldarlıqla məşğul olublar. Halal zəhmətləri ilə torpağı əkib-becəriblər, mal-qara saxlayıblar. Onların qazanc yeri, gəlir mənbəyi elə bu sahələr olub. Əvvəllər şum, əkin-biçin işləri əsasən əllə aparılırdı. Hasilə gətirilən məhsulun bəs qədəri qış ruzisi götürüldükdən sonra qalanı satılır və ya digər lazımi şeylərə dəyişilirdi. Məsələn, 20-30 il bundan əvvələdək cənub bölgəsinin ayrı-ayrı yerlərindən, xüsusən Lənkərandan Biləsuvara armud gətirir, buğda ilə dəyişib apararlarmış. Keçən əsrin 40-50-ci illərində, Böyük Vətən müharibəsindən əvvəl və sonra "ÇTZ" traktorlarının gətirilməsi yaşlı nəsil nümayəndələrinin yaxşı yadındadır. Kəndlərə ilk olaraq ayaq açan o traktorlar bir gün işləyib beş gün böyrü üstə qalardı.

Zaman keçdikcə hər şey yaxşılığa doğru dəyişdi, inkişaf etdi. Müharibənin çətinliklərindən, aclıq və səfalətindən çıxan insanlar kollektiv təsərrüfat olan kolxozda böyük həvəslə, inamla işləməyə başladılar. Torpaq da əvəzində səxavətini əsirgəmədi, onun sinəsinə zəhmət təri axıdan insanları ümidsiz qoymadı. Adamların güngüzəranı əvvəlki illərlə müqayisədə yavaş-yavaş yaxşılaşmağa başladı. Kənd təsərrüfatında dirçəliş dövrü yarandı. Alimlər aqrar sektor üçün yeni texnologiyalar ixtira etdilər. Zaman keçdikcə bunlar da təkmilləşdi, daha mütərəqqi forma aldı, get-gedə əl əməyinin azaldılmasına, istehsal olunan məhsulun kəmiyyətinə və keyfiyyətinə öz müsbət təsirini göstərdi. Keçmiş SSRİ-də istehsal olunan müxtəlif markalı traktorlar, kombaynlar, pambıqyığan maşınlar kəndlərə ayaq açdı. Yeni suvarma kanalları çəkildi, torpaqların duzdan təmizlənməsi, saflaşdırılması üçün meliorativ tədbirlər görüldü. Hər bir rayonda əvvəllər MTS, sonra RTS-lər, suvarma idarələri, torpaq şöbələri yaradıldı. Dövr dəyişdikcə həmin idarələrin strukturu və fəaliyyəti də təkmilləşdi. Daha sonra texnikalar birbaşa kolxoz və sovxozlara verildi. Bu, təsərrüfatların sərbəstliyini xeyli artırdı, kolxozlar daha çox sahəni əkmək imkanı əldə etdilər. Belə iş üsulu bol məhsul istehsal etmək üçün imkanlar açdı. Dövlət, hökumət yaxşı işləyən, yüksək məhsuldarlığa nail olan ayrı-ayrı əmək qabaqcıllarını, təsərrüfatları ən yüksək adlara, mükafatlara layiq gördü.

İndi həmin dövr deyil. Texnika da yenilənib, pambığa olan münasibət də. İndi əkinçi öz məhsulunun, torpağının sahibidir. Bu da yeni əmək münasibətləri deməkdir.

Ölkə Prezidentinin kənd təsərrüfatının inkişafı ilə bağlı tövsiyyələrinə uyğun olaraq bu il rayonumuzda pambıqçılıqla məşğul olan fermerlər və torpaq mülkiyyətçiləri tərəfindən 6745,8 hektar sahədə pambıq əkilmişdir ki, bunun da 1980 hektarı "Azərpambıq" MMC ilə, 1727 hektarı "Cotton Trade" MMC ilə, 1435 hektarı "MKT İstehsal Kommersiya" MMC ilə, 1000 hektarı "P-Agro" MMC ilə, 603.8 hektarı isə "Aztəsərrüfat" MMC ilə bağlanmış müqavilələr əsasında həyata keçirilmişdir. Artıq bir neçə gündür ki, sahələrdən məhsulun toplanmasına başlanılmışdır.



Pambıq yığımı ilə əlaqədar mövcud kombaynlara texniki baxış keçirilib, nasaz vəziyyətdə olan texnikaların təmiri işləri başa çatdırılıb.

Yığım zamanı kombaynlarda baş verəcək hər hansı nasazlıq prosesinin dərhal aradan qaldırılması üçün şirkətlər tərəfindən operativ təmir briqadası yaradılıb. Təmir briqadası mütəmadi kombaynlara baxış keçirir, təlimata uyğun istismarına nəzarət edir.

Hava şəraitindən asılı olaraq pambıq yığımının operativ, itkisiz, vaxtında yığılıb məntəqələrə çatdırılması planlaşdırılır.

Rayonumuzun pambıqçıları bol məhsul yetişdirmişlər. İndi əsas vəzifə məhsulun optimal müddətdə və itkisiz toplayıb emal müəssisələrinə təhvil verməkdir.

Bu günə qədər havaların qeyri-sabit keçməsinə baxmayaraq rayon üzrə 10.467.35 ton "ağ qızıl" toplanmış, qəbul məntəqələrinə təhvil verilmişdir. Bundan 3.195 ton "MKT İstehsal Kommersiya" MMC-nin, 1799.32 ton "Azərpambıq" MMC-nin, 1960,7 ton "P-Agro" MMC-nin, ümumilikdə 3.512.26 ton digər şirkətlərin payına düşür. Məhsul yığımı sürətlə davam edir.

Rayonda pambığın tez və itkisiz yığımını təşkil etmək və bu sahədə işlərin operativliyini təmin etmək məqsədilə qərargah yaradılıb.

Məhsul yığımında hər bir pambıqçıya uğurlar arzulayırıq!

**Ramil HƏSƏNZADƏ**

# "Müasir əkinçiliyin strukturu və innovativ suvarma sistemlərinin tətbiqinin səmərəliliyi"








Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, "KOB Dostu" və Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısının müavini Vəlahəddin Yunsurov bildirib ki, ölkəmizdə qeyri-neft sektorunun prioritet sahəsi hesab edilən kənd təsərrüfatının inkişafı, məhsul istehsalının və satışının stimullaşdırılması, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir.

O qeyd edib ki, əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməyin əsas yollarından biri də torpaqların məhsuldarlığının artırılmasıdır. Bu da bir sıra aqrotexniki tədbirlərlə yanaşı suvarmada yeni innovativ üsulların tətbiqi ilə, işlərinin düzgün və vaxtında təşkil edilməsindən çox asılıdır. Respublikamızın su ehtiyatlarının böyük hissəsi əsasən kənardan daxil olduğu üçün, yay aylarında əkinçilikdə müəyyən problemlər yaranır. Rayonumuz da çətin suvarılan rayonlardan olduğu üçün mövsüm zamanı suvarmada ciddi problemlərlə qarşılaşırıq. Bunun üçün də meliorasiya və su təsərrüfatı sahəsində müasir, innovativ və qənaətcil suvarma metodlarının tətbiqi daha çox məhsuldarlıq əldə etmək üçün bu sahəyə böyük töhfə verəcəkdir.

Tədbirdə KOBİA Aran regional koordinatoru Ayaz Adilov, "KOB Dostu"n rəhbəri Elməddin Əliyev, Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqının sədri Mirkazım Abasov, Aqrar Kredit və İnkişaf Agentliyinin Beynəlxalq təşkilatlar və maliyyə qurumları ilə əməkdaşlıq sektorunun məsləhətçisi Orxan Mirzərəhimli, Sahibkarlığın İnkişaf Fondu partnyorlarla iş şöbəsinin aparıcı mütəxəssisi Orxan Gülalıyev, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin əməkdaşı Hüseynzadə Kənan, "Azmaş" lizinq satış şöbəsinin müdiri Vüqar Mustafayev, "Prior" lizinq Salyan bölməsinin müdiri Ramiq Əhmədov, EMA satış və marketinq müdiri Mehmet Manavoglu, "AGRODRİP" MMC satış müdiri Süleymanov Sənan, 4S MMC-nin satış rəhbəri Kamran Əkbərov, DAİM-in direktoru Nurəddin Quliyev və digərləri çıxış edərək müasir əkinçiliyin strukturu və innovativ suvarma sistemlərinin tətbiqi barədə fikirlərini bölüşmüş və sahibkarları maraqlandıran suallar cavablandırılıb.

**Elşən MUSAYEV**

# "Dayanıqlı fermer fəaliyyəti üçün aqrar sığorta" mövzusunda regional tədbir



Aqrar Sığorta Fondunun və Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dayanıqlı fermer fəaliyyəti üçün aqrar sığorta" mövzusunda keçirilən görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavini Vəlahəddin Yunsurov, Aqrar Sığorta Fondunun İdarə Heyətnin sədri Fuad Sadıqov, Biləsuvar və ətraf rayonlardan olan mülkiyyətçilər iştirak edib.

Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov çıxış edərək bildirib ki, aqrar sığorta mexanizmi dövlətin fermerlərə göstərdiyi dəstək tədbirlərinin davamıdır. Mövcud mexanizmə əsasən, fermerlərə dəstək məqsədilə aqrar sığorta haqqının 50 faizini dövlət ödəyir. O, bildirib ki, havaların qeyri-sabit keçməsi, leysan yağışlar, sel və daşqınlar səbəbindən sığorta hadisələri ötən ilə nisbətən kəskin artıb. Bu hadisələr nəticəsində sığorta olunan fermerlərə dəyən zərərin müəyyənləşdirilmiş hissəsi dövlət tərəfindən qarşılanacaqdır.



Fermerlərə Aqrar Sığorta Fondunun elektron yenilikləri - "Aqrar sığorta kalkulyatoru" və "Sığorta şəhadətnaməsini yoxla" xidmətləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, istənilən fermer bu xidmətlər vasitəsilə sığorta haqqını hesablaya və sığorta şəhadətnaməsini yoxlaya bilərlər.

Aqrar sığortanın tətbiqi, fermerlərə ödənişlər, aqrar sığorta sahəsində gözlənilən yeniliklər barədə müzakirələr aparılıb, fermer və təsərrüfat sahiblərinin aqrar sığorta ekspertlərinin fəaliyyəti, sahələrə baxış və sair ilə bağlı suallları və təklifləri cavablandırılıb.

**Pərvin EYVAZLI**

# "Karvansaray" tamaşası nümayiş olunub

***Müasir dövrdə türk xalqları arasında mövcud olan mədəni əlaqələr bu xalqların tarixi keçmişinə əsaslanır. Azərbaycan xalqı öz mədəniyyətini başqa ölkələrin xalqları, ilk növbədə türk xalqları ilə əməkdaşlıq, ədəbiyyat və incəsənətin qarşılıqlı surətdə zənginləşdirilməsi və milli nailiyyətlərin mübadiləsi əsasında inkişaf etdirir.***





Digər türk xalqları kimi özbək xalqı ilə də mədəni əlaqələrimiz genişlənməkdədir. Mütəmmadi olaraq Özbəkistanın incəsənət nümayəndələrinin ölkəmizə, eləcə də rayonlarımıza qastrol səfərləri sıx dostluq və qardaşlıq münasibətlərimizin göstəricisidir.

Bu dəfə rayonumuzda qastrol səfərində olan Özbəkistan Respublikasının Surxandaryo vilayətinin Kuğurcaq teatrının kollektivi tərəfindən rayon Mədəniyyət Evində "Karvansaray" tamaşası nümayiş olunub.

Tamaşanın sonunda Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov truppanın üzvləri ilə görüşərək, aktyorlara uğurlar arzulayıb və xatirə fotosu çəkdirib.

***İlqar DADAŞOV***

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük ömrün salnaməsi" adlı tədbir



Şəhər N.Nərimanov adına 6 saylı tam orta məktəbin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük ömrün salnaməsi" adlı tədbirində Rayon İcra hakimiyyətinin başçısı Faiq Qürbətov, YAP rayon təşkilatının sədri Kamil Qurbanlı, Şirvan-Salyan Regional Təhsil İdarəsinin müdir müavini Rövşən Allahverdiyev, ümumtəhsil məktəblərinin rəhbərləri və məktəbin kollektivi iştirak edib.

İştirakçılar əvvəlcə Ulu öndərin adını daşıyan parkdakı abidəsi önünə tər çiçəklər düzərək, əziz xatirəsini yad ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov tədbirdə çıxış edərək bildirib ki, müasir Azərbaycan tarixindən söhbət düşəndə ilk öncə gözümüzün önündə bütün həyatını xalqının xoşbəxtliyinə həsr edən Heydər Əliyev canlanır. Özünün dediyi kimi azərbaycanlı olması ilə daim qürur duyan bu böyük şəxsiyyətin həyatının böyük hissəsi ölkəmizin tərəqqisi naminə apardığı mübarizəyə həsr olunub.Azərbaycan tarixinin önəmli bir dövrü-XX əsrin ikinci yarısı, XXI əsrin başlanğıcı onun adı ilə bağlıdır.Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu 30 illik dövr xalqımızın illərlə həsrətini çəkdiyi dövlət müstəqilliyinin əldə edilməsi, onun inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir.

Başçı bildirib ki, dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynadı.

Tədbirdə çıxış edən YAP rayon təşkilatının sədri Kamil Qurbanlı, Şirvan-Salyan Regional Təhsil İdarəsinin müdir müavini Rövşən Allahverdiyev və şəhər 6 saylı məktəbin direktoru Nurəngiz Bədəlova bildiriblər ki, böyük və mənalı ömrünü xalqına, Azərbaycanın möhkəmlənməsinə və yüksəlişinə həsr etmiş Ulu Öndər Heydər Əliyev özünün siyasi fəhmi və müdrikliyi ilə zəngin dövlətçilik məktəbi, yüksək idarəçilik ənənəsi yaratmış və Ümummilli Lider zirvəsinə yüksəlmişdir. Onun yaratdığı dövlət idarəçiliyi məktəbi - müstəqilliyimizi qorumaq, Vətənə, xalqa, dövlətçiliyə sədaqətlə xidmət etmək və bu yolda canını belə əsirgəməmək kimi dəyərlərdən qaynaqlanır.



Məktəb şagirdlərinin hazırladıqları ədəbi-bədii kompazisiyalar nümayiş etdirilib.

Sonda xatirə fotosu çəkilib.

***Əminə ƏHMƏDZADƏ***

# Vətən müharibəsi şəhidinin xatirəsinə həsr olunmuş sərbəst güləş idman növü üzrə açıq birincilik keçirilib

***Rayon Olimpiya İdman Kompleksində Vətən müharibəsi şəhidi İqbal İlqar oğlu Astanlının xatirəsinə həsr olunmuş sərbəst güləş idman növü üzrə U15 (2008-2009-cu il təvəllüdlü) idmançılar arasında Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin açıq birinciliyi keçirilib.***



Turnirdə Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin idman sektorunun müdiri Rövşən Mehrəliyev, Biləsuvar rayonu üzrə gənclər və idman sektorunun müdiri Azad Quliyev, YAP rayon təşkilatının sədri Kamil Qurbanlı, Rayon İcra Hakimiyyətinin vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Bəhruz Mirzəzadə, kikboksinq üzrə beşqat dünya çempionu Ehram Məcidov, Azərbaycan Güləş Federasiyasının nümayəndəsi, beynəlxalq dərəcəli hakim Tural Əliyev, Olimpiya Kompleksinin direktoru Tofiq Şahbazov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidlərin valideynləri və rayon sakinləri iştirak ediblər.



Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirin açılış mərasimində çıxış edən natiqlər bildiriblər ki, 2020-ci ilin 27 sentyabrında Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda başlanan Vətən müharibəsində Biləsuvar rayonundan yüzlərlə gənc könüllü olaraq əlinə silah alıb 30-ilə yaxın erməni işğalı altında qalan torpaqlarımızın azadlığı uğrunda döyüşə yollandı. 44 gün ərzində qəhrəmancasına döyüşərək canı-qanı bahasına işğala son qoyan biləsuvarlı igidlərimizin 69 nəfəri şəhidlik zirvəsinə yüksəldilər. Onların arasında hamımızın yaxşı tanıdığı sərbəst güləş üzrə Azərbaycan çempionu İqbal İlqar oğlu Astanlıda Vətən yolunda döyüşərək şəhidlik zirvəsinə ucalıb. Bugün keçirilən yarış İqbal Astanlının timsalında bütün şəhidlərimizə həsr olunur. Çıxışlardan sonra şəhidlərimizin həyatını və döyüş yolunu əks etdirən videoçarx nümayiş olunub.



Astara, Lənkəran, Masallı, Cəlilabad, Salyan, Şağan, Arena, Zenit Bakı, Sumqayıt, Abşeron və Biləsuvar komandalarının ümumilikdə 100 nəfərdən çox idmançısı arasında gərgin və maraqlı görüş keçirildi. Yaş qrupları üzrə keçirilən görüşlərin sonunda qaliblər mükafatlandırılıb.

Mükafatlandırma mərasimində qalib idmançılara diplom, medal və qiymətli hədiyyələr təqdim edilib.

***Bəhruz ƏLİYEV***

# "Heydər Əliyev İli"nə həsr olunmuş mini futbol üzrə rayon çempionatına yekun vurulub

***Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rayon üzrə gənclər və idman sektoru və rayon təhsil sektorunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş 2008-2009-cu il təvəllüdlü məktəbli oğlanlar arasında mini futbol üzrə rayon birinciliyi keçirilib.***



16 komandanın iştirakı ilə keçirilən turnirin əsas məqsədi rayonun ümumtəhsil məktəblərində təhsil alan gənclərin idmana, sağlam həyat tərzinə marağın artırılması, mini futbol idman növünün gənclər arasında təbliği, həmçinin məktəblər arasında dostluq əlaqələrinin möhkəmlənməsinə töhfə verilməsidir.



Yarışın nəticələrinə əsasən Şəhər 1 saylı tam orta məktəbin komandası I yerə, İsmətli kənd tam orta məktəbin komandası II yerə, Aşağı Cürəli kənd tam orta məktəbin komandası isə III yerə layiq görülüb.

Qaliblər müvafiq diplomlarla təltif edilib.

***Elşən SÜLEYMANOV***

# "Məhsul" qəzetinə 2024-cü ilin I yarısı üçün abunə yazılışı kampaniyası başlanmışdır

**Hörmətli oxucular!**

Biləsuvar rayonunun ictimai-siyasi qəzeti "Məhsul" qəzeti rayonun ictimai-siyasi həyatını əks etdirməklə abunə vasitəsi ilə yayılır. Redaksiyanın yaradıcı heyəti qəzet səhifələrində rayonda aparılan abadlıq-quruculuq işlərini geniş işıqlandırır, məzmunlu, peşəkar müəllif yazıları və bədii-publisistik məqalələr çap edir.

Hazırda 2024-cü ilin I yarısı üçün abunə yazılışı kampaniyası başlanmışdır.

Yarımillik abunə haqqı 20 manat.

Abunə "Məhsul"un redaksiyasında və "Kapitalbank"ın rayon filialında köçürmə yolu ilə aparılır.

**Əlaqə telefonları:** 050 430 55 44, 050 592 72 22

Təsisçi və baş redaktor: *Qənbərəli Bağırov*

Ünvan: AZ 1300. Biləsuvar şəhəri, M.İbrahimov küçəsi, 50.

Telefon: 5-13-42.
Mob: (050) 430-55-44
E-mail: mehsul.1931@mail.ru

Qəzetdə gedən yazılara müəlliflər cavabdehdirlər.
Sifariş: 389.
Tiraj: 500

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış və səhifələnmiş, "Son Dakika" mətbəəsində çap olunmuşdur.